AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# LƏNKƏRAN İQTİSADİ RAYONUNUN AQRAR SEKTORUNDA KOOPERASİYANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01– "Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **İbadət Əhli oğlu Hüseynov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər : Iqtisad elmlər doktoru, professor,
**İsa Hüseyn oglu Alıyev**

Rəsmi opponentlər: iqtisad elmlər doktoru, professor,
**Şəfa Tofiq qızı Quliyeva**

iqtisad üzrə fəlsəfə doktoru,
**Namiq Əlövsət oğlu Şalbuzov**

iqtisad üzrə fəlsəfə doktoru, dossent,
**Vüsalə Yavər qızı Nağıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

ÜMUMİ ŞÖBƏ

**Dissertasiya şurasının elmi katibi:** iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Suqra İnqilab qızı Hümbətova**

**Elmi seminarın sədri:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasında müasir bazar iqtisadiyyatı şəraitində aqrar sahə fəaliyyətinin yeni, postneft dövrünün tələbləri səviyyəsində formalaşdırılması və inkişafı böyük əhəmiyyət kəsb edir. Bu proseslərdə isə kooperasiya və inteqrasiya münasibətləri mühüm rol oynayır. Ümumiyyətlə, ölkəmizdə aqrar sahədə kooperasiya fəaliyyətini müxtəlif mülkiyyət formalı təsərrüfat subyektləri arasındakı səmərəli və qarşılıqlı münasibətlərin ən bariz nümunəsi kimi qiymətləndirmək olar. Çünki, bu fəaliyyət yeni iqtisadi mərhələdə-postneft dövründə aqrar sahədə baş verən çoxsaylı dəyişikliklərə məqsədyönlü şəkildə uyğunlaşaraq, innovativ yeniliklərin bu sahəyə səmərəli tətbiqinə imkan yaradır. Lakin, həmin proseslərin lazımı səviyyədə, hərtərəfli və ardıcıl şəkildə həyata keçirilməsi isə bilavasitə dövlətin böyük diqqət və qayğısı ilə əlaqədardır.

Son illər aqrar kooperasiya fəaliyyətinin zəruri qanunvericilik bazasının formalaşması bu sahədə ayrıca qanun və aqrar iqtisadi proqramların qəbul olunması aqrar sahənin, xüsusən aqrar kooperasiya fəaliyyətinin inkişafını da nəzərə alan tədbirlər müsbət addım kimi dəyərləndirilə bilər. Azərbaycanın beynəlxalq reytinqlərdə digər regional dövlətlərlə müqayisədə bu sahədə mövqeyi hər il yaxşılaşmaqdadır. Müşahidə və təhlillər göstərir ki, bu gün dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin kənd təsərrüfatında məhz yüksək səviyyəli aqrar kooperasiya və inteqrasiya münasibətlərinin formalaşması nəticəsində uğurlu nəticələrə nail olunmuş, göstərilən istiqamətdə səmərəli təsərrüfatçılıq formaları qurularaq dayanıqlı inkişaf edə bilmişlər. Beynəlxalq təcrübədən göründüyü kimi, kənd təsərrüfatının dayanıqlı inkişafı məhz kooperasiya fəaliyyətinin çoxsaylı üstünlüklərindən istifadə olunmaqla təmin edilmiş, yüksək rəqabətqabiliyyətli məhsulların nəinki istehsalı, həmçinin onların tədarükü, emalı və satışı, maddi-texniki və maliyyə-kredit təminatı, digər zəruri infrastruktur tədbirlərinin həyata keçirilməsi də bu yolla baş vermişdir.

Təbii ki, qeyd edilən məsələlər ölkəmiz üçün də xüsusi əhəmiyyət kəsb edir. Çünki regionlarda, xüsusən Lənkəran-Astara iqtisadi rayonunda aqrar sahənin modernləşmə tələblərinə uyğun yenidən qurulması, o cümlədən yüksək keyfiyyətli məhsulların düzgün istehsalı, emalı və

onların istehlakçılara çatdırılması ilə bağlı olan oxşar proseslərin həyata keçirilməsi səmərəli kooperasiya fəaliyyəti olmadan mümkün deyildir. Mövcud sahədə baş verən lokal inhisarçılıq, qeyri-sağlam və haqsız rəqabət meylləri, digər anoloji hallar isə əksər hallarda pərakəndə və dağınıq şəkildə fəaliyyət göstərən xırda istehsalçıların fəaliyyətinin düzgün konsolidasiyasını və onların sağlam kooperasiyaya əsaslanan birgə fəaliyyətini tələb edir.

Ölkə regionlarının sosial-iqtisadi inkişafı üzrə həyata keçirilən bir sıra dövlət proqramlarında aqrar sahənin səmərəli və modernyönlü dayanıqlı inkişaf meyllərini nəzərə alan tədbirlərə xüsusi diqqət yetirilir. Çünki, kənd təsərrüfatına yararlı torpaq sahələri, o cümlədən aktiv iş qüvvəsi məhz regionlarda yerləşir. 90-cı illərin ortalarında ölkədə aparılmış torpaq islahatları nəticəsində, kənd əhalisi torpaq mülkiyyətçisi olmuş, müəyyən obyektiv və subyektiv səbəblərə görə, əksər mülkiyyətçilər öz pay torpaqlarını becərməyərək, asan və daha çox qazanc məqsədilə şəhərlərə axışmışlar.

Bununla yanaşı, 1995-ci ildə qəbul edilmiş "Aqrar islahatların əsasları haqqında Qanun"un, 14 iyul 2017-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" və s. bu kimi hüquqi-normativ sənədlərin həyata keçirilməsi istiqamətində aparılan torpaq islahatından sonra aqrar sahədə keyfiyyət yönümlü dəyişikliklər həyata keçirilməyə başlandı. Sonrakı mərhələlərdə sovxoz və kolxozların əmlakının özəlləşdirilməsi, dövlət tərəfindən kiçik təsərüffat subyektlərinə subsidiyaların verilməsi və s. aqrar sektorun inkişafına dövlət qaygısının bariz nümunəsidir. Qeyd edilən prosesdə regionların dayanıqlı inkişafına dair qəbul edilmiş dövlət proqramının böyük rolu danılmazdır. Xüsusən də, son dövrlərdə aqrar sahənin modernləşdirilməsi və keyfiyyət yönümlü tədbirlərin həyata keçirilməsinə daha çox diqqət yetirilir.

Qeyd etmək lazımdır ki, digər iqtisadi rayonlarda olduğu kimi, Lənkəran-Astara iqtisadi rayonunda (İR) da aqrar sahədə müxtəlif iqtisadi problemlər hələ də qalmaqdadır. Məsələn, əksər aqrar istehsalçılar, xüsusən də xırda istehsalçılar, o cümlədən kəndli fermer təsərrüfatları təkbaşına öz torpaq sahəsini əkib məhsul yetişdirməkdə bir çox problemlərlə qarşılaşır və ya məhsul istehsalında geriləmə yaranır və

ümumilikdə istehsal səviyyəsi azalmış olur. Bu qəbildən, qeyd edilən İR-da da fəaliyyət göstərən az saylı (3 kooperativ) kooperativlər də yuxarıda qeyd edilən problemlərlə üzləşir ki, bu da aqrar sahədə kooperasiya fəaliyyətinin mövcud reallıqlara uyğun olaraq qurulmasını və sürətləndirilməsini tələb edir. Qeyd edək ki, aqrar sahədə kooperasiya fəaliyyəti–dəyər zəncirinin bütün həlqələri üzrə istehsalçıdan istehlakçıya qədər olan bütöv bir prosesi əhatə edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər isə kooperasiya əlaqələrinin daha ciddi və əsaslandırılmış şəkildə təşkil olunmasını zəruri edir.

Aqrar sahədə kooperasiya münasibətlərinin səmərəli şəkildə inkişaf etdirilməsi regionlarda yaşayan əhalinin əksər hissəsinin mövcud problemlərinin həllinin inkişafina da böyük təkan vermək iqtidarındadır. Təbii ki, bu problemli vəziyyət ölkəmizin digər regionlarına nisbətən daha sıx əhali kontingentinə sahib olan Lənkəran-Astara iqtisadi rayonunun payına da düşür. Məhz, bu baxımdan yuxarıda göstərilən və aqrar kooperasiyanın dayanıqlı inkişafı istiqamətində həlli vacib sayılan digər məsələlər, Lənkəran-Astara iqtisadi rayonunun timsalında dissertasiya mövzusunun düzgün seçilməsini və işlənib hazırlanmasını zəruri etmişdir.

Araşdırmalar göstərir ki, tədqiq etdiyimiz problemin müxtəlif nəzəri-metodoloji və tətbiqi xüsusiyyətləri həm yerli, həm də xarici ölkə alimlərinin maraq dairəsində olmuş və bu istiqamətdə müxtəlif araşdırmalar aparılmışdır. Məsələn, müxtəlif vaxtlarda ölkəmizin tanınmış iqtisadçı alimlərindən İ.H.Alıyev, İ.T.Abbasov, V.H.Abbasov, N.Ə.Cavadov, Q.H.Həsənov, Y.Ə.Hümbətov, H.A.Xəlilov, E.R.İbrahimov, H.A.İsrafilov və digərləri tərəfindən göstərilən məsələnin müxtəlif aspektləri araşdırılmış, onların səmərəli həlli istiqamətində mühüm əhəmiyyət kəsb edən və elmi cəhətdən əsaslandırılmış təkliflər irəli sürülmüşdür.

Xarici ölkə alimlərindən-A.M.Бабушкин, К.И.Вахитов, И.Н.Герчикова, Ф.К.Гамзаева, М.И.Жигалов, R.L.Amanda, M.E.Porter və s. əsərlərində də kooperasiya, o cümlədən aqrar kooperasiya proseslərinin səmərəli tənzimlənməsi problemləri geniş tədqiq olunmuşdur. Lakin, yuxarıda adları qeyd edilən alimlərin, xüsusən də Azərbaycan alimlərinin əsərlərində ölkə regionlarının (Lənkəran-Astara İR) timsalında aqrar kooperasiya məsələləri kifayət səviyyədə geniş tədqiq olunmamış,

regionda kənd təsərrüfatının kooperasiya yönümlü inkişafı istiqamətində olan problemlər kompleks şəkildə araşdırılmamışdır. Bu baxımdan, Lənkəran-Astara iqtisadi rayonun aqrar sektorunda kooperasiyanın inkişaf istiqamətlərinin müəyyən edilməsinə yönəldilmiş problemlərin təhlili və qiymətləndirilməsi üzrə tədqiqatın aparılması zamanın tələbindən irəli gəlir. Bazar münasibətlərinin inkişafı və aqrar sektorda kooperasiya əlaqələrinin inkişaf etdirilməsi, iqtisadi müstəqilliyin genişlənməsi əhalinin ərzaq təhlükəsizliyi və məşğulluğunun təmin olunmasına şərait yaratmaqla, ölkəmizin iqtisadi qüdrətini daha da yüksəldə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti Lənkəran-Astara iqtisadi rayonunun aqrar sektorunda fəaliyət göstərən kooperativlər və kiçik fermer təsərrüfatlarıdır. Tədqiqatın predmetini isə Lənkəran-Astara iqtisadi rayonunun aqrar sektorunda kooperasiyanın inkişaf istiqamətlərinin müəyən edilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Lənkəran-Astara iqtisadi rayonunun timsalında aqrar kooperasiya fəaliyyətinin rolununun araşdırılması, həmçinin bu fəaliyyətin mövcud şəraitə uyğun vəziyyətinin təhlili, qiymətləndirilməsi və modernləşdirilməsi əsasında iqtisadi rayona uyğun aqrar sektorda kooperasiyanın inkişaf istiqamətlərinin müəyyən edilməsi və elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- aqrar sektorda kooperasiya fəaliyyətinin nəzəri-metodoloji əsasları və prinsiplərinin, beynəlxalq təcrübəyə əsaslanaraq onun Azərbaycanda inkişaf xüsusiyyətlərinin müəyyən edilməsi;
- Lənkəran-Astara iqtisadi rayonunda aqrar sektorun mövcud durumunun və dayanıqlı inkişafının aqrar kooperasiya baxımından təhlil edilməsi;
- Lənkəran-Astara iqtisadi rayonunda emal müəssisələrinin fəaliyyətinin təhlili;
- ölkə üzrə iqtisadi artımın kənd təsərrüfatı müəssisələrində ümumi məhsulun həcmi və onunla əlaqəli digər dörd göstəricilərdən asılığı modelinin verilməsi və qiymətləndirilməsi;
- Lənkəran-Astara iqtisadi rayonunda aqroemal sənayesi

müəssisələrinin modernləşdirilməsi yollarının müəyyən edilməsi;

- aqrar sektorda kooperasiya münasibətlərinin təkmilləşdirilməsi istiqamətlərinin araşdırılması;

- Lənkəran-Astara iqtisadi rayonunun timsalında aqrar sektorda kooperasiyanın inkişaf istiqamətləri üzrə konkret təklif və tövsiyyələrin işlənib hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat işində elmi abstraksiya, analiz və sintez, iqtisadi-statistik ümumiləşdirmə və təhlil, ekonometrik qiymətləndirmə üzrə çoxamilli reqressiya metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin mövzusuna uyğun olaraq aparılan tədqiqat işi nəticəsində müdafiəyə çıxarılan elmi müddəalar aşağıdakılardır:

**Müddəa 1.** Aqrar sektorda kooperasiya fəaliyyətinin və onların əlaqlərinin xarakterik xüsusiyyətləri ilə bağlı müasir iqtisadi şəraitdə kooperasiyanın növləri, onun iqtisadi və qeyri-iqtisadi fəaliyyətin müxtəlif sferalarına uyğun qruplaşdırılması, aqrar sektorda kooperasiya fəaliyyətinin əsas prinsiplərinin müəyyən edilməsi və s. əsasında sistemləşdirilməsini şərtləndirir;

**Müddəa 2.** Müəyyən edilmişdir ki, məhz aqrar kooperasiya münasibətlərinin inkişafı ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayaraq ölkə əhalisinin etibarlı ərzaq və kənd təsərrüfatı məhsulları üzrə təminatçısına çevrilməklə Lənkəran-Astara İR-da kiçik ölçülü təsərrüfatlarda səmərəli əkin sisteminin tətbiq olunması, onların təsərrüfat fəaliyyətinin intensiv metodlarla inkişaf etdirilməsinə maneçilik göstərən problemlərin aşkar edilməsi və həlli yollarının tapılması, həmşinin fəaliyyətlərinin sivil kooperasiya prinsipləri ilə qarşılıqlı əlaqədə qurulması zərurətini yaradır;

**Müddəa 3.** Lənkəran-Astara iqtisadi rayonunda kooperasiya əlaqələrinin inkişaf meyilləri hazırda fəaliyyət göstərən “Qaya” bitkiçilik və “Bəhrəli” heyvandarlıq kooperativlərinin nümunəsində təhlil edilərək qiymətləndirilmişdir;

**Müddəa 4.** Lənkəran-Astara iqtisadi rayonunda kooperasiya əlaqələrinin inkişaf meyilləri “Astaraçay” MMC və “PALFOOD” MMC-nin timsalında təhlil edilərək qiymətləndirilmişdir;

**Müddəa 5.** Setup tətbiqi proqram paketinə əsasən kənd təsərrüfatı müəssisələrinin ümumi məhsulu, müəsisələrin sayı, əkinə yararlı torpaq

sahəsi, bu təsərrüfatlarda məşğul əhalinin sayı və məhsul satışının rentabelliyindən asılı Azərbaycanda ÜDM-in illər üzrə həcmi modeli, onun standart səhvləri, habelə reqresiya tənliyinin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra şərtləri müəyyən edilmişdir;

**Müddəa 6.** Aparılmış tədqiqat nəticəsində Lənkəran-Astara iqtisadi rayonunda aqroemal sənayesi müəssisələrinin modernləşdirilməsi yolları müəyyən edilmişdir;

**Müddəa 7.** Aqrar sektorda kooperasiya münasibətlərinin təkmilləşdirilməsi istiqamətində elmi əsaslandırılmış təkliflər verilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin əsas elmi yeniliklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

-ölkə iqtisadiyyatında kooperasiya fəaliyyətinin mövcud rolu və yeri məsələləri çağdaş məzmun baxımından dəyərləndirilmiş, aqrar sahədə kooperasiya fəaliyyətinin səmərəli təşkili və modern tələblərə uyğun inkişaf istiqamətləri sistemləşdirilmişdir [45,47, 104];

-bazar münasibətləri şəraitində aqrar kooperasiya əlaqələrinin rolu və əhəmiyyəti göstərilməklə tədqiq olunan iqtisadi regionda aqrar kooperasiya fəaliyyətinin səmərəli təşkil olunması istiqamətləri müəyyənləşdirilmişdir [46, 105];

-Lənkəran-Astara iqtisadi rayonunun aqrar sahəsində kooperasiya fəaliyyəti, kooperasiya əlaqələrinin inkişaf meyilləri "Qaya" bitkiçilik və "Bəhrəli" heyvandarlıq kooperativlərinin nümunəsində təhlil edilərək mövcud durumu qiymətləndirilmişdir [49];

-ÜDM-in artımının kənd təsərrüfatı müəssisələrinin ümumi məhsulu və digər göstərilərdən asılılığının çoxamilli reqresiya modeli verilmiş, Darbin-Uotson testi vasitəsi ilə modelin avtokorrelyasiyası fərziyyəsi yoxlanılmış və Fişer-Snedekor kriteriyası əsasında reqressiya tənliyinin bütövlükdə statistik əhəmiyyəti müəyyənləşdirilmişdir. Lənkəran-Astara iqtisadi rayonunun aqrar sektorunda kooperasiya əlaqələrinin inkişafı hesabına iqtisadi artımın beş sərbəst dəyişəndən ($x_{i1}, x_{i2},... x_{i5}$) asılılığı modelindən istifadə etməklə sonrakı illər üçün bu göstəricinin proqnoz qiymətinin hesablanılması mümkündür [48];

-Lənkəran-Astara iqtisadi rayonunda aqrar kooperasiya münasibətlərinin dayanıqlı inkişafının əsas istiqamətləri müəyyən edilmiş, tədqiq edilən rayonda kooperasiya əlaqələrinin inkişaf səviyyəsi aşağı olan müəssisələrin maliyyə-təsərrüfat fəaliyətlərinin ziyanla

nəticələnmə səbəbləri, "Tuado çay" MMC-nin 2016-2022-ci illər üzrə mənfəət vergisi bəyənnaməsinə əsasən bütün xərc elementləri təhlil edilərək qiymətləndirilmişdir [50];

-Lənkəran-Astara iqtisadi rayonunda emal müəssisələri "Astaraçay" MMC və "PALFOOD" MMC üzrə gəlir, xərc və mənfəət göstəriciləri təhlil edilərək kooperasiya əlaqələri baxımından qiymətləndirilmişdir;

-Lənkəran-Astara iqtisadi rayonunda aqroemal sənayesi müəssisələrinin modernləşdirilməsi yolları müəyyən edilməklə aqrar sektorda kooperasiya münasibətlərinin təkmilləşdirilməsi istiqamətində elmi əsaslandırılmış təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyəti Lənkəran-Astara iqtisadi rayonunun aqrar sektorunda kooperasiya fəaliyyətinin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməklə iqtisadi tədbirlərin təkmilləşdirilməsinə nail olmaqdan, aqrar-kooperasiya istiqamətində sahibkarlığı inkişaf etdirmək və cəlb olunan investisiya qoyuluşlarını stimullaşdırmaqdan, istehsal olunan aqrar məhsulların beynəlxalq ixrac imkanlarını yüksəltməkdən ibarətdir.

Tədqiqatın praktiki əhəmiyyəti-dissertasiya işində irəli sürülən təklif və tövsiyələr Lənkəran-Astara iqtisadi rayonunda aqrar kooperasiya fəaliyyətinin səmərəli inkişaf istiqamətlərinin əsaslandırılmasında, aqrar sahənin modernləşdirilməsi istiqamətində davamlı tədbirlərin həyata keçirilməsində, aqrar sahənin mövcud inkişaf meyllərini əsas götürərək bu regionda sağlam kooperasiya münasibətlərinə əsaslanan klasterlərin formalaşdırılmasında, aqrar sahənin xüsusiyyətlərinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin dəstəklənməsi ilə aqrar kooperasiya münasibətlərinin daha da gücləndirilməsində və s. mühüm rol oynaya bilər.

Dissertasiya işində əldə olunan nəticələrdən ali təhsil müəssisələrində aqrar sahə üzrə ixtisas fənlərinin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Yerinə yetirilmiş tədqiqat işinin əsas müddəaları və əldə olunmuş nəticələr haqqında Azərbaycan, Rusiya, Kanada və s. keçirilən müxtəlif səviyyəli elmi-praktik konfranslarda çıxışlar edilmişdir. Tədqiqat işinin əsas elmi nəticələri isə 10, o cümlədən xaricdə nəşr olunmuş 3 elmi məqalədə öz əksini tapmışdır.

Dissertasiya işinin əsas elmi müddəaları müəllifin beynəlxalq elmi-praktiki konfranslarda ("Regional iqtisadi siyasət və kooperasiya

münasibətlərinin inkişafı" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, "Bakı 2014", "Aqrar elmin və təhsilin innovativ inkişafı: dünya təcrübəsi və müasir prioritetlər" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, "Gəncə-2015", "İqtisadiyyat və menecment" mövzusunda LII beynəlxalq elmi-praktiki konfrans "Moskva-2021", Beynəlxalq Araşdırma Mərkəzinin "Dünya elminin innovasiyaları və perspektivləri" mövzusunda beynəlxalq elmi-praktik konfransı, Vankuver, Kanada-2023, AƏSMA-nın "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda Beynəlxalq elmi-praktik konfransı, Bakı-2023) çıxışlarında məruzə edilmiş və konfrans materiallarında çap edilmişdir. Həmçinin dissertasiya işinin əsas elmi nəticələri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Lənkəran Regional təşkilatı tərəfindən qəbul olunaraq bəyənilmiş, gələcəkdə tətbiq ediləcəyi haqqında müvafiq arayış verilmişdir (Arayış №07, 01 fevral 2018-ci il ).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** İş Azərbaycan ETN-nin İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi giriş (15303 işarə), üç fəsildən (I Fəsil – 65986 işarə, II Fəsil – 84001 işarə, III Fəsil – 86234 işarə) və nəticədən (10259 işarə) ibarətdir. Ümumilikdə dissertasiyanın həcmi 152 sayda ədəbiyyatdan, 15 cədvəldən, 12 şəkil və qrafikdən ibarətdir. Nəticə, ədəbiyyat siyahısı, cədvəl və qrafiklər istisna olmaqla dissertasiyanın həcmi 251524 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**Giriş**

**I FƏSIL. AQRAR SEKTORDA KOOPERASIYA FƏALİYYƏTININ NƏZƏRİ–METODOLOJİ ƏSASLARI**

1.1. Aqrar sektorda kooperasiya fəaliyyətinin nəzəri əsasları və prinsipləri
1.2. Aqrar sektorda kooperasiya fəaliyyətinin əsas xüsusiyyətləri
1.3. Aqrar kooperasiyanın inkişafında beynəlxalq təcrübə və onun Azərbaycanda inkişaf xüsusiyyətləri

**II FƏSİL LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA AQRAR KOOPERASİYANIN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Lənkəran-Astara iqtisadi rayonunda aqrar sektorun və kənd təsəərrüfatı kooperativlərinin mövcud durumunun təhlili və qiymətləndirilməsi
2.2. Lənkəran-Astara iqtisadi rayonunun dayanıqlı inkişafının aqrar kooperasiya baxımından təhlili
2.3. Lənkəran-Astara iqtisadi rayonunda emal müəssisələrinin fəaliyyətinin təhlili

**III FƏSİL LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA AQRAR KOOPERASİYANIN GƏLƏCƏK İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ**

3.1. Aqrar sektorun inkişafının iqtisadi artıma təsiri modeli və onun qiymətləndirilməsi
3.2. Lənkəran-Astara iqtisadi rayonunda aqroemal sənayesi müəssisələrinin modernləşdirilməsi yolları
3.3. Aqrar sektorda kooperasiya münasibətlərinin təkmilləşdirilməsi istiqamətləri

**Nəticə və təkliflər**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## MÜDAFIƏYƏ ÇIXARILAN ƏSAS ELMI MÜDDƏALAR:

**Müddəa 1. Aqrar sektorda kooperasiya fəaliyyətinin və onların əlaqlərinin xarakterik xüsusiyyətləri ilə bağlı müasir iqtisadi şəraitdə kooperasiyanın növləri, onun iqtisadi və qeyri-iqtisadi fəaliyyətin müxtəlif sferalarına uyğun qruplaşdırılması, aqrar sektorda kooperasiya fəaliyyətinin əsas prinsiplərinin müəyyən edilməsi və s. əsasında sistemləşdirilməsini şərtləndirir.**

Beynəlxalq Kooperativ Alyansına görə kooperativ-cəmiyyət üzvlərinin özlərinin iqtisadi, sosial və mədəni ehtiyaclarını qarşılamaq istiqamətində formalaşmış, eyni zamanda demokratik nəzarətin yekdil təmin edildiyi və müştərək müəssisə yaratmaq vasitəsilə konüllü birləşdikləri müstəqil assosiasiyadır. Eyni zamanda, Beynəlxalq Əmək Təşkilatı kooperativin açıqlamasına aşağıdakı kimi yanaşır-kooperativlər nisbətən məhdud resurslara malik olan fiziki və hüquqi şəxslərin öz iqtisadi durumlarını daha da yaxşılaşdırmaq istiqamətində demokratik dəyərlərə əsaslanan, həmçinin səmərəli və sağlam özünü idarəetmə mühiti təşkil edərək birləşdikləri assosiasiativ qurumlardır. Kooperasiya əlaqəsi qarşılıqlı münasibətlərə əsaslanan iqtisadi subyektlərin gəlir və mənfəətlərinin yüksəlməsinə daha əlverişli şərait yaradaraq, birgə səylər və təşəbbüslər nəticəsində həyata keçirilən iqtisadi proseslərin və tədbirlərin məcmusu kimi fəaliyyət göstərərək, kollegiallıq, təsərrüfat müstəqilliyi və özü-özünü maliyyələşdirmə prinsipləri əsasında idarə edilir. Kooperasiya fəaliyyəti iqtisadi fəaliyyət prosesinin mühüm və səmərəli təşkili üsullarından biri olmaqla, iştirakçıların mənafelərinin qorunması və səmərəli faydalılığın təminatına çevrilərək bir neçə əmək prosesində birgə iştirak edən müxtəlif sayda insanların, mülkiyyətçilərin hər hansı konkret könüllü birliklərin əməkdaşlığı kimi təşkil olunur. Bu baxımdan müasir şəraitdə fəaliyyət xarakterinə görə kooperasiyanın əsas növlərinin qruplaşdırılmış sxemi əsasında aqrar sektorda kooperasiya fəaliyyətinin əsas prinsiplərini görmək olar (şəkil 1). Şəkildən göründüyü kimi, üç əsas növə, yaxud qrupa ayrılan kooperasiyaların hər biri öz növbəsində müxtəlif yarımqruplara bölünür. Burada isə onların konkret fəaliyyət istiqamətləri əks olunur ki, bu da kooperasiya fəaliyyətinin əsas prinsiplərinin müəyyən edilməsini şərtləndirir.




**Şəkil 1. Fəaliyyət xarakterinə görə kooperasiyanın növləri**

*Mənbə: müəllif tərəfindən tərtib edilmişdir*

Statistik məlumatlara əsasən Beynəlxalq Kooperativ Alyansına 192 ölkədən 76 Milli kooperativ Birliyi daxildir. Bu gün BKA-nin kooperativ üzvləri dünya əhalisinin təxminən 12%-ni təşkil edir və onların ümumi dövriyyələri 2,17 trilyon ABŞ dollarına bərabərdir. Bu tip kooperativlərin biznesi kapital çoxluğu əldə etmək deyil və dünyada 3 milyon kooperativ

dəyərlər vermək məqsədilə davamlı iqtisadi inkişafa və sabit, keyfiyyətli məşğulluğa köməklik edir və 280 milyon əhalini özündə birləşdirir. Beləliklə, kooperasiyaların forma, prinsip və inkişafı anlayışının tam məzmunda xarakteristikasını aydınladan müxtəlif yanaşmaların konservativ, sistemli və təkamül mövqeyi tədqiqat işində sistemləşdirilərək vermişdir[1].

**Müddəa 2. Müəyyən edilmişdir ki, məhz aqrar kooperasiya münasibətlərinin inkişafı ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayaraq ölkə əhalisinin etibarlı ərzaq və kənd təsərrüfatı məhsulları üzrə təminatçısına çevrilməklə Lənkəran-Astara İR-da kiçik ölçülü təsərrüfatlarda səmərəli əkin sisteminin tətbiq olunması, onların təsərrüfat fəaliyyətinin intensiv metodlarla inkişaf etdirilməsinə maneçilik göstərən problemlərin aşkar edilməsi və həlli yollarının tapılması, həmşinin fəaliyyətlərinin sivil kooperasiya prinsipləri ilə qarşılıqlı əlaqədə qurulması zərurətini yaradır.**

Aparılmış təhlillər onu göstərir ki, məhz aqrar kooperasiya münasibətlərinin inkişafı ərzaq təhlükəsizliyinin təmin olunmasındakı mühüm rolunu nəzərə alaraq hər bir ölkədə əhalinin ərzaq və kənd təsərrüfatı məhsulları ilə təminatı dövlətin ən ümdə vəzifələrindən hesab edilir. Nəzərə almaq lazımdır ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi ölkə əhalisinin etibarlı ərzaq və kənd təsərrüfatı məhsulları üzrə təminatında mühüm rol oynayır. Bundan başqa ərzaq təhlükəsizliyi milli genefondumuzun sağlam formalaşmasına, eləcə də iqtisadi davamlılığın təmin edilməsinə müsbət təsir edir.

Beynəlxalq Analitik Agentliyin (Economic İntellengence Unit) 2022-ci il üzrə 113 dünya ölkələri arasında ərzaq təhlükəsizliyinin səviyyəsinin müəyyənləşdirilməsi reytinq sıralamasında müxtəlif ölkələr (o cümlədən, Azərbaycan Respulikası) ərzaq təhlükəsizliyi indeksinə görə fərqli mövqedə olmuşlar (qrafik 1.).

---

[1] *Жигалов М.И. Кооперативы как ведущая организационно-экономическая форма малого промышленного производства // Экономика образования, Мосва. 2011, №3, с.232-235*




**Qrafik 1. 2022-ci ildə bəzi ölkələrin reytinqi və qlobal ərzaq təhlüksizliyi indeksinin dinamikası**

*Mənbə:* *https://gtmarket.ru/ratings/global-food-security-index*

Təhlil göstərir ki, 2022-ci il üzrə qlobal ərzaq təhlükəsizliyi sahəsində Finlandiya 83,7 balla ən yüksək 1-ci sırada yer almışdır. Bundan başqa İrlandiya 81,7 balla 2-ci, Norveç 80,5 balla 3-cü, Fransa 80,2 balla 4-cü və Niderland 80,1 balla 5-ci sırada olmuşdur. Azərbaycan üzrə bu göstərici 66-cü yer olmaqla 59,8 bal təşkil etmiş, Ukrayna 71-ci, Özbəkistan 73-cü, Tacikistan 75-ci mövqedə olmaqla Azərbaycandan geri sıralarda yer almışlar. Təhlildən göründüyü kimi, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində növbəti illərdə də davamlı olaraq aqrar kooperasiya münasibətlərinin inkişafında ciddi iqtisadi tədbirlərin həyata keçirilməsi vacib şərt olaraq nəzərdə tutula bilər. Fikrimizcə, yalnız bu istiqamətdə həyata keçirilməsi planlaşdırılan tədbirlər nəticəsində beynəlxalq reytinqdə ölkəmizin irəliləməsini təmin etmək mümkün ola biləcəkdir. Dünya ölkələri içərisində iqtisadiyyatın hərtərəfli inkişaf edən ABŞ-da fermer kooperativləri aqrar sahənin ən mühüm həlqələrindən biridir. ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, hər 5 fermerdən 4-ü bu kooperativlərin xidmətlərindən istifadə edir. Bu kooperativlər vasitəsilə ölkədə kənd təsərrüfatı məhsullarının məcmu həcminin 31%-i, o cümlədən süd və süd məhsullarının 76%-i, taxıl məhsullarının 59%-i, pambığın isə 35%-i

istehsal edilir. Lakin, indiyə qədər kənd təsərrüfatı kooperasiyası haqqında qəbul edilmiş Qanun, Azərbaycan Respublikasının kənd təsərrüfatında kooperativ sektorunun inkişafına kifayət qədər təkan verə bilməmişdir. Çünki, kooperativin səmərəli işləməsi üçün kreditlərin, əmanətlərin, borc alınmaların, subsidiyaların və s. kimi borc vəsaitlərinin lazımi həcmdə əldə edilməsi vacibdır. Kredit kooperativinin fəaliyyətinin çox vacib göstəricisi əhalinin əmanətlərinin kooperativə cəlb edilməsidir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatına əsasən ölkədə kənd təsərrüfatının istehsal və emal sənayesində təşkil edilmiş kooperativlərin sayı 2014-cü ilə nisbətən 2019-cu ildə 10 vahid və sonrakı illərdə 15 vahid azalaraq 33-ə düzmüşdür. "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsindən gözlənilən nəticələr bu istiqamətin təşkili səviyyəsində qənaətbəxş alınmadı. Çünki, fərdi kəndli təsərrüfatlarının və fermerlərin kənd təsərrüfatı kooperasi-yalarına qoşulmasına bir sıra problemlər maneçilik göstərir. Bu baxımdan, ölkəmizdə kənd təsərrüfatı kooperativlərinin kifayət sayda fəaliyyət göstərməsi, xarici ölkələrdə olduğu kimi, həm bu sahədə məhsul istehsalı, emalı, maddi-texniki təchizat və xidmət sahələrinin ümumi istehsal və iş həcminin kifayət səviyyədə xüsusi çəkisinə sahib olmasına, ölkə əhalisinin gəlirlərinin artmasına, həm də regionların və bütövlükdə ölkə iqtisadiyyatının inkişafında həlledici mövqedə olmasına təkan verə bilər.

**Müddəa 3. Lənkəran-Astara iqtisadi rayonunda kooperasiya əlaqələrinin inkişaf meyilləri hazırda fəaliyyət göstərən "Qaya" bitkiçilik və "Bəhrəli" heyvandarlıq kooperativlərinin nümunəsində təhlil edilərək qiymətləndirilmişdir.**

İri təsərrüfatlar istehsal prosesinin effektiv təşkili baxımından daha əhəmiyyətli hesab edildiyindən, kooperativlər də bu cür təsərrüfatların səmərəli təşkil olunması formalarından biri kimi çıxış edir. Bu baxımdan, vaxtilə ümummilli lider Heydər Əliyev böyük uzaqgörənliklə, kənd təsərrüfatı kooperasiyasının ilkin hüquqi əsaslar nəzərdə tutmuş aqrar islahatlar paketi ölkəmizin bütün regionlarına olduğu kimi, Lənkəran-Astara iqtisadi rayonunda da tədricən inkişaf etdirilmişdir. 2021-2022-ci illərdə Lənkəran-Astara iqtisadi rayonunda faktiki qiymətlə kənd təsərrüfatının ümumi məhsulunun həcmi cədvəl 1-də verilmişdir.

**Cədvəl 1. İqtisadi rayonda kənd təsərrüfatının ümumi istehsalı, milyon manat**

| Lənkəran-Astara İR və ona daxil olan rayonlar | 2021-ci il | | | | 2022-ci il | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | İqti-sadi rayo-nun ümu-mi həc-min-də rayonla-rın xüsusi çəkisi,% | Bitkiçi-lik | Hey-van-darlıq | Cəmi | İqtisadi rayo-nun ümumi həcmin-də rayonla-rın xüsusi çəkisi,% | Bitkiçi-lik | Hey-vandar-lıq | 2021-ci ilə nicbə-tən 2022-ci ildə artım və ya azal-ma,(+), (-), % |
| Lənkəran-Astara İR | 810,736 | 100,0 | 433,035 | 377,701 | 999,720 | 100,0 | 556,431 | 443,29 | +23,3 |
| Astara | 88,377 | 10,9 | 44,619 | 43,758 | 110,318 | 11,035 | 60,106 | 50,212 | +24,8 |
| Cəlilabad | 335,319 | 41,3 | 214,448 | 120,830 | 415,907 | 41,602 | 278,272 | 137,635 | +24,0 |
| Lerik | 60,766 | 7,49 | 19,505 | 41,261 | 84,904 | 8,493 | 26,598 | 58,306 | +39,7 |
| Lənkəran | 137,134 | 16,9 | 77,569 | 59,565 | 162,552 | 16,260 | 94,049 | 68,503 | +18,5 |
| Masallı | 142,013 | 17,6 | 66,073 | 75,940 | 170,101 | 17,015 | 83,623 | 86,478 | +19,7 |
| Yardımlı | 47,127 | 5,81 | 10,781 | 36,346 | 55,937 | 5,595 | 13,782 | 42,155 | +18,7 |

*Mənbə: AR DSK. Azərbaycanın kənd təsərrüfatı.-2023 (s.182) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

Təhlil göstərir ki, bu iqtisadi rayonda istehsal olunan kənd təsərrüfatı məhsulları ümumi ölkə məhsulunun 2021-ci ildə 8,85%-ni, 2022-ci ildə isə 9,1%-ni təşkil etmişdir. Bitkiçilik məhsulları üzrə bu göstərici 2021-ci ildə 9,59%, heyvandarıq məhsullarında 8,12% xüsusi çəkiyə malik olmuş, 2022-ci ildə isə bitkiçilikdə 10,05%, heyvandarlıqda 8,14% təşkil etmişdir. Onu da qeyd edək ki, tədqiq edilən iqtisadi rayonun tərkibində olan rayonlar içərisində ən yüksək xüsusi çəki Cəlilabadda olmuşdur ki, bu da müvafiq illərdə 41,3% və 41,602% deməkdir. Bu İR üzrə ən aşağı xüsusi çəki Yardımlı rayonunda olmaqla 2021-ci ildə 5,81%, 2022-ci ildə 5,595% təşkil etmişdir. 2022-ci ildə bu göstərici mövcud rayonda 0,215% azalmışdır. Fikrimizcə, 2022-ci ildə Yardımlı rayonunda kənd təsərrüfatı məhsulunun həcmində 8,8103 min manat artım olmasına baxmayaraq xüsusi çəkidə baş vermiş azalma həmin ildə digər rayonlarda istehsal həcminin daha çox artıma malik olması ilə izahlandırıla bilər. Tədqiq etdiyimiz Lənkəran-Astara İR-na daxil olan Yardımlı rayonu üzrə 2022-ci ildə normal fəaliyyət göstərən aqrar kooperativlərin sayı 2 olmuşdur ki, bu göstərici də ölkə üzrə ümumi kooperativlərin sayında 6,1%-i təşkil edir. Yardımlıda fəaliyyətdə olan kooperativlərdən biri ("Qaya"

kooperativi, əkin sahəsi 52 ha) dənli, paxlalı və yağlı bitkilərin yetişdirilməsi ilə, digəri isə ("Bəhrəli" kooperativi, otlaq sahəsi 37 ha) heyvandarlıq məhsullrının istehsalı ilə məşğul olurlar. Azərbaycan Respublikası və Lənkəran-Astara iqtisadi rayonu üzrə 2017-2022-ci illərdə bəzi bitkiçilik məhsullarının istehsal həcmi qrafik 2-də verilir.




**Qrafik 2. 2017-2022-ci illərdə Azərbaycan və Lənkəran-Astara İR-da bəzi bitkiçilik məhsullarının istehsal həcmi**

*Mənbə: AR DSK. Azərbaycanın kənd təsərrüfatı - 2023 (s.379-380) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

Azərbaycanda 2022-ci ildə dənli-paxlalı bitkilər üzrə ümumi məhsulda (3161,271 min ton) qeyd edilən rayonun xüsusi çəkisi 7,74% və istehsal həcmi 244,828 min ton; ölkədə kartofun ümumi istehsalında (1074,261 min ton) həmin İR-nun xüsusi çəkisi 23,2% və 248,870 min ton; müvafiq olaraq tərəvəz üzrə ümumi istehsalda (1823,330 min ton) rayonun xüsusi çəkisi 9,7% və 177,768 min ton; meyvə və giləmeyvələrin ümumi istehsalında (1253,069 min ton) isə rayonun xüsusi çəkisi 8,7% və 108,657 min ton təşkil etmişdir.

Yardımlı rayon statsistika idarəsinin məlumatlarının təhlili göstərir ki, “Qaya” kooperativində müqayisə edilən bitkiçilik məhsullarının əkin sahəsində yalnız dənli və dənli paxlalı bitkilərdə 2018-ci ilə nisbətən 2022-ci ildə 25 ha azalma olmuşdur. Bu növ məhsul üzrə yığımın həcmində 2018-ci illə müqayisədə 2022-ci ildə 660 sentner azalma olmuşdur. Həmçinin, tərəvəz, bostan məhsulları və kartofun əkin sahəsində müqayisə dövründə 1 hektar və müvafiq olaraq məhsul istehsalında 95 sentner azalma olmuşdur. “Bəhrəli” kooperativində əldə edilmiş balaların diri çəkisi qoyunlarda 2018-ci illə müqayisədə 3 sentner azalaraq 2022-ci ildə 5 sentner olmuş, iri-buynuzlu mal-qarada isə 1 sentner olmaqla sabit qalmışdır. Çəki artımında iri-buynuzla mal-qarada müvafiq dövrdə 1 sentner azalma, qoyunlarda isə 3 sentner çoxalma olmuşdur. Onu da qeyd edək ki, bu kooperativdə mal-qaranın kökəldilməsindən ən yüksək çəki artımı 2019-cu ildə olmaqla 7 sentner təşkil etmişdir. Qoyunlarda isə bu göstəricinin ən yüksək göstəricisi 2019-cu ildə 39,8 sentner olmuşdur. Həmçinin kəsilmək üçün satılan mal-qara və quşların həcmində mal-qarada 2 sentner, qoyunlarda 23 sentner, sağılmış inək südü 2022-ci ildə 42 sentner, qoyunlardan yun qırxımı isə 2018-ci ildə ən çox istehsl olunmaqla 12,2 sentner təşkil etmişdir.

Fikrimizcə, İR-da aqrar sektorun istehsalın həcmini artırmaq məqsədilə mövcud torpaq sahələrindən, əmək ehtiyatlarından, maddi-texniki resurslardan daha səmərəli istifadə olunması, məhsuldar cins heyvanların və bitki sortlarının tətbiqi, eyni zamanda bazar iqtisadiyyatının prinsiplərinə uyğun olaraq yeni təsərrüfatçılıq formalarının (kənd tənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlıq təsərrüfatları, kiçik müəssisələr, kooperativlər və s.) fəaliyyətinin düzgün təşkili əsasında əhalinin kənd təsərrüfatı və ərzaq məhsullarına, emal sənayesinin isə xammala olan ehtiyaclarını səmərəli ödəmək mümkündür.

**Müddəa 4. Lənkəran-Astara iqtisadi rayonunda kooperasiya əlaqələrinin inkişaf meyilləri “Astaraçay” MMC və “PALFOOD” MMC-nin timsalında təhlil edilərək qiymətləndirilmişdir**. Lənkəran-Astara İR-da “Yaşıl çay” fermer təsərrüfatı ilə bərabər rayonun “Astara Çay” MMC, “Beta” MMC və Lənkəran Çay Elmi Təcrübə bazası kimi ixtisaslaşmış çayçılıq təsərrüfatlarının plantasiyalarından da yaşıl çay yarpağının yığılması geniş şəkildə davam etdirilərək regionda mövcud olan çayçılıq müəssisələrində kooperasiya əlaqələri inkişaf

etdirilir. Qeyd etdiyimiz kimi, Lənkəran-Atara iqtisadi rayonu çay istehsalında liderlik etməklə, ölkədəki çay istehsalının 2022-ci ildə 94,3%-i üzrə xüsusi çəkiyə malikdir. Yaşıl çay yarpağının ümumi yığımında bu iqtisadi rayonun payının həddən çox olması həmin rayonun bu sahəyə ixtisaslaşmasını ifadə edir. Məsələn, Astarada bu növ məhsulun istehsalının 66,19%-i, Lənkəranda 26,82%-i və Masallıda 1,28% düşməklə qalan 6,71%-i isə Zaqatala rayonunun (57,0 ton) payına düşür. Fikrimizcə, Lənkəran-Astara İR-da fəaliyyət göstərən kooperativlər və kiçik sahibkarlıq müəssisələri öz fəaliyyətini bu istiqamətə ixtisaslaşdırmaqda davam etdirməli, yeni çay, feyxoa, portağal və naringi sortları əldə etməklə yüksək məhsuldarlığa sahib olmalı və regionun, həmçinin ölkənin iqtisadi inkişafında həlledici rola malik olmağa cəhd etməlidir. 2020-ci ildə "Astaraçay" MMC-nin iş və xidmətlərdən əldə etdiyi ümumi gəlir əvvəlki illərlə müqayisədə kəskin şəkildə azalaraq 4761,724 min manat, 2021-ci ildə 5495,763 min manat və 2020-ci ildə 6894,256 min manat olmuşdur. Bu da, 2022-ci ildə müəssisənin gəlirinin tədqiq olunan dövr üzrə 2019-cu illə müqayisədə 25,8-37,4% azalması deməkdir. Göründüyü kimi "Astaraçay" MMC-nin iş və xidmətlərdən əldə etdiyi ümumi gəlirin və xərclərin dəyişmə dinamikası vergitutma məqsədləri üçün mənfəətin dəyişməsinə təsir edərək, iş və xidmətlər üzrə məhsulun rentabellik səviyyəsinin dəyişməsini şərtləndirmişdir (qrafik 3).




**Qrafik 3."Astaraçay" MMC-nin məhsul istehsalı üzrə iş və xidmətlərinin rentabellik səviyyəsi**

*Mənbə: [**"Astaraçay" MMC-nin illik hesabatı**] əsasında müəllif tərtib etmişdir*

Təhlil göstərir ki,  2016-2019-cu illərdə "Astaraçay" MMC-nin məhsul istehsalı üzrə iş və xidmətlərinin rentabellik səviyyəsi çay məhsulunun istehsalı və satışına çəkilən xərclərin azaldılması ilə əlaqədar olaraq artan dinamika ilə inkişaf etmişdir. Lakin, 2020-2022-ci ildə bu göstəricinin kəskin aşağı düşməsini həmin dövrdə virusun yayılması nəticəsində işçilərin xəstələnməsi, eyni zamanda bitkinin vegetasiya dövrünə uyğun becərmə işlərinin vaxtlı-vaxtında icra edilməməsi, həmçinin  iş və xidmət səviyyəsinin kifayət edici olmaması ilə əsaslandırmaq olar.

"Tuado çay" MMC-nin 2016-2029-cu illər üzrə ümumi gəliri azalsa da, 2020-2022-ci illərdə malların təqdim olunmasından, iş və xidmətlərdən əldə olunan gəlir əvvəlki illərlə müqayisədə artaraq müvafiq illərdə 1982,9 min manat, 2143,8 min manat və 2392,6 min manat olmuşdur. Lakin, gəlirin artmasına baxmayaraq müəssisədə vergitutma məqsədləri üçün yaranmış mənfəətdə 2020-2022-ci illərdə müvafiq illərdə 514, 01 min manat, 542,39 min manat və 589,88 min manat ziyan əldə edilmişdir.

Eyni zamanda cəmi gəlidən çıxılan xərclər ümumi gəlirdən müvafiq olaraq 2017-ci ildə 287,407 min manat,  2020-ci ildə 514,01 min manat, 2021-ci ildə 621,78 min manat və 2022-ci ildə 471,82 min manat çox olduğu üçün müəssisə həmin illərdə ziyanla işləmişdir. Fikrimizcə, müəssisənin qeyd edilən illərdə mənfəətlə işləməsinə çay plantasiyalarının artırılması ilə bağlı əlavə xərclərin, əmək haqqına ödəmələrin və s. artması səbəb ola bilər.




| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Gəlir, manatla | 604 000 | 6 015 000 | 2 800 000 | 1 889 000 | 1 940 000 | 0 |
| Xərc, manatla | 718 000 | 6 328 000 | 2 785 000 | 2 975 000 | 2 876 000 | 0 |
| Mənfəət (+), Zərər (-) | -114 000 | -313 000 | 15 000 | -1 086 000 | -936 000 | 0 |

**Diaqram 1. "PALFOOD" MMC-nin 2015-2020-ci illər üzrə gəlir, xərc və mənfəətinin dinamikası. manatla**

*Mənbə: ["PALFOOD" MMC-nin hesabatları] əsasında müəllif tərtib etmişdir*

*Qeyd: Müəssisə öz fəaliyyətini 2020-ci ildə dayandırmışdır*

2008-ci ildən fəaliyyət göstərən "PALFOOD" MMC-nin məhsulları

"PalSüd" ticarət nişanı ilə istehsah edilərək Lənkəran iqtisadi rayonunda süd və süd məhsullarının istehsalı ilə məşgul olsa da, 2020-ci ildən etibarən istehsal fəaliyyəti dayandırılmışdır. Aşağıdakı diaqrammadan bunları görmək olar.

"PALFOOD" MMC-nin 2015-2019-cu illər üzrə gəliri artan dinamika ilə inkişaf etsə də, 2017-ci il istisna olmaqla tədqiq olunan bütün dövr üzrə xərclər gəliri üstələmişdir ki, bu da müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin ziyanla nəticələnməsinə səbəb olmuşdur. Lənkəran-Astara iqtisadi rayonunda aqrar sektor üzrə kooperasiyanın inkişaf meyillərinin tədqiqi nəticəsində müəyyən edilimişdir ki, kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan bəzi müəssisələrdə kooperasiya əlaqələrinin zəif inkişaf etməsi, həmin müəssisələrdə məhsulun və istehsalın rentabellik səviyyəsinin azalması ilə nəticələnərək müəssisələrin fəaliyyətinin dayanmasına səbəb olmuşdur.

**Müddəa 5. Setup tətbiqi proqram paketinə əsasən kənd təsərrüfatı müəssisələrinin ümumi məhsulu, müəsisələrin sayı, əkinə yararlı torpaq sahəsi, bu təsərrüfatlarda məşğul əhalinin sayı və məhsul satışının rentabelliyindən asılı Azərbaycanda ÜDM-in illər üzrə həcmi və standart səhvləri, habelə reqresiya tənliyinin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra şərtləri müəyyən edilmişdir.**

Azərbaycan Respublikasında 2008-2022-ci illərdə ÜDM-in kənd təsərrüfatı məhsulunun və onunla əlaqəli bir sıra göstəricilərin təsirindən asılı olaraq dəyişməsini aydınlaşdırmaq məqsədilə ÜDM-in həcminin kənd təsərrüfatı məhsulu, müəssisələrin sayı, onların tabeliyində olan əkinə yararlı torpaqlar, məşğul olan əhalinin sayı və satışın rentabelliyi arasındakı əlaqə modeli və onun qiymətləndirilməsi aparılmışdır.

Ötən dövr ərzində N (i=1,2,…, N) illərin statistik məlumatları əsasında aşağıda qeyd edilən müvafiq göstəricilərdən ibarət ÜDM-in həcminin proqnozlaşdırılması üçün lazım gələn statistik məlumatlar göstərir ki, ölkə üzrə ümumi daxili məhsulun həcmində kənd təsərrüfatı istehsalının xüsusi çəkisi ildən-ilə artır. Bununla bağlı ÜDM-in həcminin (y) kənd təsərrüfatı müəssisələrinin ümumi məhsulu ($KT_{um}$) ($x_1$), kənd təsərrüfatında məhsul istehsalı ilə məşğul olan müəssisələrin sayı ($M_s$) ($x_2$), kənd təsərrüfatına yararlı torpaqlar ($KT_{yt}$) ($x_3$), kənd təsərrüfatında məşğul olan əhalinin sayı ($ME_s$) ($x_4$) və kənd təsərrüfatı məhsularının

satışının rentabelliyindən ($S_r$) ($x_5$) asılı olaraq dəyiməsinin çoxamilli reqressiya modeli Setup tətbiqi proqram paketinə əsasən əldə edilmişdir:

$$UDM_h=-110.0497 +40.7102KT_{um} +3.1124M_s-31.491KT_{yt} + +158.0936\,ME_s+1.7302S_r. \qquad (1)$$

Göstəricilər arasında əlaqə modelində avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmişdir[2]. Bu isə o deməkdir ki, qeyri-xətti reqressiya tənliyi statistik əhəmiyyətlidir və qurulmuş model bütövlükdə adekvatdır.

**Müddəa 6. Aparılmış tədqiqat nəticəsində Lənkəran-Astara iqtisadi rayonunda aqroemal sənayesi müəssisələrinin modernləşdirilməsi yolları müəyyən edilmişdir.**

Davamlı iqtisadiyyat dayanıqlı inkişaf üçün etibarlı bazanı təmin edir. Dayanıqlı inkişafın əsas prinsipləri təsərrüfat fəaliyyətinin iqtisadi effektivliyinin davamlı yüksəldilməsini; müasir innovasiyalı texnologiyaların istehsal sahələrində tətbiqini; istehsal potensialından səmərəli istifadənin təmin edilməsini; regionlar üzrə istehsal və xidmət sahələrinin fasiləsiz olaraq genişləndirilməsini və s. şərtləndirir. Tədqiqat apardığımız Lənkəran-Astara iqtisadi rayonunda emal sahələrinin mövcud durumunun təhlili göstərir ki, bu sahədə resurslardan hələ də istifadə edilməmiş xeyli imkanlar vardır. Bu region əsasən subtropik meyvə və tərəvəz məhsullarının istehsalı istiqamətində ixtisaslaşdığı üçün, burada əsasən meyvə və tərəvəzin emalını həyata keçirən konserv sənayesi qurumlarının inkişafı ilə bərabər, un üyütmə müəssisələrinin (dəyirmanların) inkişaf səviyyəsi də nəzərə çarpacaq dərəcədədir. Həmçinin burada ərzaq (yeyinti) məhsullarının emalını həyata keçirən ət, süd və şərab sənayesi müəssisələrinin sayı da artmaqdadır. Bu istiqamətdə, son illərdə Lənkəran şəhərində "Palmali" şirkətlər qrupunun istifadəyə verdiyi süd məhsulları kombinatını qeyd edə bilərik. Belə ki, 2008-ci ildə başlayaraq, bu şirkətin ticarət nişanı altında geniş çeşiddə süd məhsulları istehlakçıların tələbatını ödəməyə başlamışdır. Lakin, PalSüd təkcə kommersiya xarakterli deyil, ilk növbədə sosial yönümlü, alıcıları yüksək keyfiyyətli və gigiyenik məhsullarla təmin edən bir layihədir. Şirkət, Azərbaycan Respublikasında süd emalı sahəsində beynəlxalq ISO

[2] *Кремер, Н.Ш. Теория вероятностей и математическая статистика / Н.Ш.Кремер - Москва: ЮНИТИ, - 2001.- 543 с.*

22000:2005 sertifikatı almış yeganə qurum hesab olunur. Şirkətdə qurulan və ən yüksək standartlara cavab verən mövcud laboratoriya fiziki, kimyəvi və mikrobioloji bölmələrdən təşkil edilmişdir. Məhz burada şirkətə daxil olan süd xammalının lazımi keyfiyyətinə, pasterizə və emal edilmiş anoloji məhsulların saxlanılması və qablaşdırılması proseslərinə əlverişli şərait yaradılmışdır.

Lənkəran-Astara iqtisadi rayonunun aqrar sahəsində fəaliyyət göstərən nisbətən kiçik və orta emal müəssisələrinin iqtisadi fəaliyyətinin təhlili göstərir ki, onların əksəriyyətində emal məhsulların satışı müəyyən problemlərlə üzləşmişdir. Məsələn, regionun ərazisində olan Lənkəran rayonundan fərqli olaraq, qonşu Masallı rayonunda istehsal edilən əksər kənd təsərrüfatı məhsullarının əmtəəlik səviyyəsi və göstəriciləri daha yüksəkdir. Lakin bu rayonun emal qurumlarında istehsal olunan buğda unu və çay emalından başqa, digər istehsal sahələrində mövcud fəaliyyət prosesi yeni texnologiyalara uyğun şəkildə aparılmadığı üçün, burada daim artma və azalma meylləri müşahidə olunmaqdadır. Statistik məlumatların təhlili göstərir ki, Lənkəran-Astara İR-da fəaliyyət göstərən emal sənayesi ilə birgə bütün sənaye müəssisələrinin sayı 2009-2022-ci illər ərzində 4,77 dəfə artaraq 1531 vahid olmuşdur.

Çoxsaylı xarici mütəxəssislər və ekspertlər Azərbaycanda istehsal olunan ekoloji təmiz ərzaq məhsullarının, xüsusən də tərəvəzçilik, bostançılıq, bağçılıq məhsullarının keyfiyyətindən daim razı qalırlar. Onlar bu məhsullara Avropa bazarlarında çox təsadüf hallarda rast gəlindiyini bildirərək, yüksək keyfiyyətli və əla dada malik yerli məhsulların nə üçün Avropanın bazarlarına tam və geniş həcmdə çıxarılmadığı üçün təəccüb edirlər. Onu da qeyd edək ki, ölkənin digər regionlarında olduğu kimi, Lənkəran-Astara iqtisadi rayonunda da aqrar sektorun zəruri texnoloji inkişafının yetərsiz səviyyədə olması burada vahid texnologiya transformasiyası və kooperasiyaya əsaslanan aqrar təsərrüfat subyektlərinin fəaliyyətinin iqtisadi təhlili üzrə müvafiq mərkəzin yaradılmasını da zəruri edir. Fikrimizcə, aqrar texnologiya sahəsində vahid transfert mərkəzinin Lənkəran-Astara iqtisadi rayonu ərazisində fəaliyyət göstərməsi - burada modern aqrosənaye texnologiyalarının düzgün müəyyənləşdirilməsi və tətbiqi məsələləri ilə ətraflı şəkildə məşğul ola bilər.

**Müddəa 7. Aqrar sektorda kooperasiya münasibətlərinin təkmilləşdirilməsi istiqamətində elmi əsaslandırılmış təkliflər verilmişdir.**

Aqrar sektorda kooperasiya münasibətləri təsərrüfatlararası koordinasiya və səmərəli əlaqələndirmə proseslərinin başlıca forması kimi çıxış etdiyi üçün, onun daim inkişafına və təkmilləşdirilməsinə ehtiyac vardır. Belə ki, göstərilən münasibətlərin təkmilləşdirilməsi-mövcud bazar konyukturasının şərtlərini nəzərə almaqla, böyük əksəriyyəti kiçik və orta ölçülü olan təsərrüfat subyektlərində yeni, müasir texnologiyaların səmərəli tətbiqinə əlverişli şəraitin yaradılmasını və məhsuldarlığın yüksəlməsinə şərait yaradır ki, bu da son nəticədə kooperasiya üzvlərinin gəlirlərinin artmasına və rifah səviyyələrinin yüksəlməsinə imkan verir. Müşahidələrdən göründüyü kimi, çağdaş şəraitdə aqrar kooperasiya münasibətlərinin inkişaf etdirilməsi bu sahənin dayanıqlı inkişafının ən etibarlı və sınanılmış yoludur. Fikrimizcə, kooperasiyaların düzgün təşkilində aşağıda göstərilənlərin həlli mühüm rol oynayır: -iqtisadi rayonların istehsal etdikləri məhsullara, relyef və iqlim şəraitinə görə ixtisaslaşdırılması; -kənd təsərrüfatında intensiv inkişafın, müasir texnologiyaların tətbiqi, istehsalın təşkili və yeni idarəetmə sisteminin yaradılması; -kənd təsərrüfatı mütəxəssislərinin səmərəli məşğulluq səviyyəsinin yüksəlməsi və onların ixtisas dərəcələrinin artırılması üçün təkmilləşdirilmə kurslarının təşkili; -istehsalçıların texnika, kənd təsərrüfatı maşınları və s. avadanlıqlarla dövlət və ya bu istiqamətdə məşğul olan özəl şirkətlərin müvafiq xidmət sistemlərindən yararlanmaqla lizinq yolu ilə təmin olunması; -ailə və kəndli fermer təsərrüfatlarının birləşdirilməsində onların bir-birilə torpaq sərhədlərində çəkdikləri faydasız su arxlarının və bar verməyən ağaclar (əsasən söyüd ağacları) nəticəsində torpağın məhv olmasının qarşısının alınması, bitkilərin ziyanverici mikroorqanizmlərə qarşı mübarizə tədbirlərində mütərrəqi üsulların tətbiqi və s.

Tədqiqatda qeyd edildiyi kimi, Lənkəran-Astara iqtisadi rayonunda yerli iqlim şəraitinə uyğun yetişdirilən və aqrar kooperasiya baxımından daim təkmilləşdirməyə ehtiyac duyulan sahələrdən biri də çəltikçilikdir. Bu iqtisadi rayonda düyü istehsalının tarixi keçmiş köklərə söykənir, əsasən Astara, Lənkəran və Masallı rayonlarında yetişdirilir. Çəltikçiliyin inkişafında qəbul edilmiş dövlət proqramında 2025-ci ildə əkin sahəsinin 10 min hektara və məhsuldarlığın isə 40 sentner/ha çatdırılması planlaşdırılır.

Hesab edirik ki, Lənkəran-Astara İR-da çayçılıq sahəsində aqrar

kooperasiya münasibətlərinin səmərəli təşkili nəticəsində, bu gün əksəriyyəti pay torpaqları formasında mövcud olan çay sahələrindən birgə istifadə olunmalıdır. Çünki, çay istehsalında ağır əmək proseslərinin fərdi şəkildə həyata keçirilməsi ilə yüksək nəticələrin əldə olunması demək olar ki, mümkün deyildir. Müvafiq texnologiyaları ardıcıl, planauyğun şəkildə çayçılıqda tətbiq edərək, yüksək məhsuldarlığa və keyfiyyətli istehsala nail olmaq olar. Bu zaman məhsulun maya dəyərinin aşağı salınması da zərurət kəsb edir. Bütün bunlara rəğmən, Lənkəran-Astara iqtisadi rayonunda çayçılığın kooperasiya əsasında inkişaf etdirilməsi üçün aşağıda göstərilənlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik: -çay təsərrüfatlarının daha səmərəli fəaliyyətinin təşkilində istehsal və yığım proseslərinin mexanikləşdirilməsi üçün zəruri texniki vəsaitlərin birgə əldə olunması və istifadə edilməsi; -istehsal edilən yerli çay sortlarının keyfiyyətinin yüksəldilməsinə təkan verən bütün texniki, texnoloji və digər proseslərə kooperasiya əsasında birgə riayət olunması; -mövcud resurslardan qənaətcil istifadə olunmasına şərait yaradan zəruri texniki bazanın təşəkkül tapması və çayçılıq məhsullarının istehsalı, düzgün qablaşdırılması və saxlanması, daşınması və digər zəruri proseslərin səmərəli təşkilini ehtiva edən çayçılıq (subtropik bitkilər) klasterinin formalaşdırılması və s.

Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə (Qarabağ və Şərqi Zəngəzur İR-da) aqroparkların fəaliyyəti aqrar sferada sağlam rəqabətin başlanmasına təkan olacaqdır. “Dost” ağıllı aqropark kampusunun tikintisinin ilkin mərhələsinin açılışının 20 oktyabr 2022-ci ildə baş tutması onu göstərir ki, bu istiqamətdə də dövlət həlledici addımlar atır və gələcəkdə də atmağa davam edəcəkdir.

İR-da digər mühüm bir istiqamət isə tərəvəzçiliyin, xüsusən də faraş tərəvəzçiliyin inkişafı sahəsində pərakəndiliyi aradan qaldırmaq və onun kompleksliliyinin təmin olunmasıdır. Müşahidələr göstərir ki, bitkiçiliyin ən mürəkkəb istiqamətlərindən biri hesab edilən tərəvəz bitkiləri torpaq və iqlim şəraitinə qarşı çox tələbkardır. Torpağın münbitliyi, xüsusən məhsuldar qatın qalınlığı, üzvi və mineral qida maddələrinin ehtiyatı və digər amillər bu bitkilərin inkişafında mühüm rol oynayır. Burada məhsuldarlığı artırmağın əsas yollarından biri–rayonlaşdırılmış sortlardan və onların kondisiyalı toxumlarından istifadə olunmasıdır.

Fikrimizcə, Azərbaycanda regionlar üzrə kənd təsərrüfatında yeni

təsərrüfat strukturlarının formalaşdırılması, onların bazar iqtisadiyyatı qanunlarına uyğun olaraq səmərəli fəaliyyətinin təmin olunması olduqca zəruridir və bunun üçün aşağıdakı məsələlər həllini tapmalıdır: kəndli təsərrüfatına investisiya məqsədləri üçün büdcədən subsidiyalar verilməsinə dair uzunmüddətli dövlət proqramlarının işlənibb hazırlanması və reallaşdırılması; kənd təsərrüfatı sahibkarlarının fəaliyyətini kreditləşdirən banklar üçün güzəştli vergilərin müəyyənləşdirilməsi, müvafiq banklar üzrə dövlət tərəfindən subsidiyalaşdırılma sisteminin tətbiqi; aqrar sektor üzrə mövcud sahibkarların fəaliyyətində stimullaşdırılmış sığorta mexanizminin tətbiqi və s.

## NƏTİCƏ və TƏKLİFLƏR

Kooperasiya fəaliyyətinin iqtisadi məzmunu və tərkib elementləri, aqrar sektorda onun özünəməxsus xüsusiyyətləri, göstərilən istiqamətdə xarici təcrübənin öyrənilməsi, Lənkəran-Astara iqtisadi rayonunun timsalında aqrar kooperasiyanın mövcud durumunun qiymətləndirilərək təhlil edilməsi, həmçinin onun gələcək inkişafı və təkmilləşdirilməsi istiqamətlərinə uyğun gələn, nəzəri və təcrübi əhəmiyyət kəsb edən, elmi cəhətdən əsaslandırılmış kompleks xarakterli mühüm nəticələr əldə edilməklə tədqiqat işində aşağıdakı təkliflər irəli sürülmüşdür:

1.Kooperasiya fəaliyyəti-qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün, müxtəlif təşkilatı formalarda həyata keçirilən birgə təsərrüfat fəaliyyəti olmaqla əməyin səmərəli təşkili forması kimi, iştirakçıların məqsədyönlü və birgə fəaliyyətlərinin daha optimal əlaqələndirilməsi istiqamətində sağlam mühit yaradır. Bazar münasibətləri şəraitində kooperasiya fəaliyyətinin səmərəli və davamlı inkişafı-mövcud olan təsərrüfat subyektlərinin təşkilati, struktur baxımından daha da təkmilləşdirilməsinə əlverişli şərait yaradır və bazar konyukturasında baş verən dəyişiklikləri əhatəli və kompleks əks etdirir. Odur ki, mövcud kooperasiya fəaliyyətinin iqtisadi mahiyyəti və zəruri struktur aspektlərinin hərtərəfli inkişafı sahəsində lazımi elmi-metodoloji və hüquqi bazanın formalaşdırılaraq daim inkişaf etdirilməsi labüddür.

2.Aqrar kooperasiya fəaliyyəti özünəməxsus xüsusiyyətlərə malik olmaqla aqrar sahədə təsərrüfat fəaliyyətinin hüquqi təşkilinin mühüm formalarından biri kimi çıxış edərək, özlüyündə müxtəlif kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının iqtisadi fəaliyyət proseslərində

birləşməsini həyata keçirən və üzvlərinin tələbatının ödənilməsinə yönəlmiş fəaliyyət növüdür. Təbii ki, bu tip qurumların könüllü birləşmə əsasında yaradılmasının əsas məqsədi bazarın tələblərini ödəyə bilən yüksək rəqabət qabiliyyətli məhsuları istehsal etmək, müvafiq xidmətlər göstərmək, mövcud potensialdan səmərəli və intensivləşdirmə əsasında istifadə etmək, əmək məhsuldarlığının artırılmasına əlverişli şərait yaratmaq və son nəticədə kooperasiya üzvlərinin gəlirlərinin artırılmasını təmin etməklə normal həyat və iş fəaliyyətinin təmin olunmasıdır. Müşahidələr göstərir ki, aqrar kooperasiya fəaliyyətinin normal formalaşmasına və davamlı inkişafına təkan verə biləcək amillərin nəzərə alınması zəruridir.

3.Aqrar kooperasiyanın inkişafı istiqamətində qabaqcıl xarici təcrübə göstərir ki, dövlətin birbaşa dəstəyi və himayəsi nəticəsində inkişaf edən kooperasiyalarda istehsal olunan məhsullar–digər anoloji məhsullarla müqayisədə daha yüksək istehlak xüsusiyyətlərini və yüksək keyfiyyətli olmasını mütləq nəzərə almaq lazımdır. Aqrar sektorda kooperasiya fəaliyyətinin keyfiyyət yönümlü inkişafı və təkmilləşdirilməsi innovasiyalar və elmi-texniki tərəqqinin modern texnologiyalarının səmərəli tətbiqinin nəticəsi kimi çıxış etməklə artıq inkişaf etmiş ölkələrin praktikasında özünü doğrultmuşdur.

4.Lənkəran-Astara iqtisadi rayonunda aqrar sektorun mövcud durumunun qiymətləndirilməsi amillərinin təhlilindən göründüyü kimi, bu region ölkənin digər regionlarından fərqli olaraq özünəməxsus xüsusiyyətlərə malikdir. Region ərazisinin nisbətən yığcam, əhalisinin isə çox sıx olması, əsrarəngiz və özünəməxsus subtropik iqlim qurşağının mövcudluğu, ərazidən beynəlxalq nəqliyyat qovşaqlarının keçməsi və s. amillər, onun spesifik cəhətlərinə uyğun olaraq əhəmiyyətini artırır. Aparılmış təhlillərdən göründüyü kimi, bu istiqamətlərdə kənd təsərrüfatı bitkilərinin və heyvandarlıq məhsullarının yetişdirilməsi prosesində intensiv metodların tətbiqinə geniş yer verilməsi, özəl toxumçuluq və tingcilik təsərrüfatlarının fəaliyyətinin daha da genislndirilməsi, mütərəqqi texnologiyaların tətbiq edilməsinin stimullaşdırılması, mövcud konserv, şirə və sair anoloji məhsulların istehsalı müəssisələrinin modernləşdirilməsi və mini emal müssisələrinin qurulmasının dəstəklənməsi və s. zəruridir.

5.Tədqiqat işində Setup proqramının tətbiqi ilə aqrar sektorun

inkişafının iqtisadi artıma təsiri modeli və qiymətləndirilməsi zamanı aşağıdakı nəticələr əldə edilmişdir: -aqrar sektorun inkişafının iqtisadi artıma təsiri modeli $UDM_h=-110.0497 +40.7102KT_{um}+3.1124M_s-31.491KT_{yt}+158.0936ME_s+1.7302S_r$ tənliyi ilə ifadə olunan asılılıq vardır; -tədqiqat işində Setup proqramının tətbiqi ilə müəyyən edilmşdir ki, aqrar sektorda kooperasiya münasibətlərinin inkişafı ilə əlaqədar ÜDM-in beş göstəricidən asılılığının müəyyən edilməsi əsasında $x_3$ ($KT_{yt}$) sərbəst dəyişəni istisna olmaqla digər göstəricilərin ümumilikdə 1% artması ÜDM-in həcminin 0,9755% artması ilə nəticələnir.

6.Lənkəran-Astara iqtisadi rayonunun dayanıqlı inkişafının aqrar kooperasiya baxımından təhlili göstərir ki, iqtisadi rayonun mövcud şəraitinə uyğun olaraq, ekoloji təmiz ərzaq məhsullarının (xüsusən də çay və digər subtropik bitkilərin), damazlıq heyvanların və s. dinamik inkişafını təmin etmək, kənd təsərrüfatı xammalının emalının dərinliyini artırmaq, ölkə üzrə yuxarıda göstərilən məhsullar üzrə aparıcı tədarükçü kimi çıxış etmək mümkündür. Çünki, buna regionun əlverişli təbii-iqlim şəraiti və mövcud potensialı əlverişli imkan yaradır.

7.Lənkəran-Astara iqtisadi rayonunda fəaliyyət göstərən aqroemal sənayesi müəssisələrinin modernləşdirilməsi yollarının düzgün müəyyən edilməsi, onların innovasiyalı inkişafının təmin olunması kimi bu və digər məqsədlərə uyğun müəyyən səmərələşdirici təkliflərin verilməsi də xüsusi önəm kəsb edən müsələlərdəndir. Fikrimizcə, aqrar emal qurumlarında innovasiya yönümlü modernləşməyə mane olan əsas amillər, əsas etibarilə həm iqtisadi, həm də istehsal amilləri ilə bağlıdır. İqtisadi amillərdən ən mühümü isə, bu qurumların lazımi pul-maliyyə vəsaitlərinə malik olmamaları və müəyyən iqtisadi risklərin mövcudluğudur.

Fikrimizcə, dissertasiya işini yekunlaşdırarkən, əmələ gələn bu nəticə və təkliflər, Lənkəran-Astara iqtisadi rayonunda aqrar kooperasiyanın dayanıqlı inkişafına güclü təkan verərək, bu sahədə fəaliyyətin hərtərəfli stimullaşdırılmasına şərait yarada bilər.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Kənd təsərrüfatı kooperasiyasının inkişafına aqroparkların təsir mexanizmləri. Az KTİETİ-nun Elmi Əsərləri, №2/2017,s.67-72

2. Aqrar sahədə kooperasiya əlaqələrinə yeni praqmatik baxış. “Kooperasiya” jurnalı, -2017, №1(40), s. 67 - 73

3. Современное состояние кооперационно-интеграционных связей в аграрном секторе Азербайджанской Республики. Журнал «Экономика и предпринимательство», №12 (ч.1) / (65-1) 2015, с.277 – 281

4. Aqrar kooperasiya və inteqrasiya əlaqələri: mövcud baxış və yeni yanaşma tərzi. AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2015,

5. Aqrar sahədə kooperasiya əlaqələrinin formalaşması və inkişafı məsələləri "Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı" mövzusunda beynəlxalq elmi–praktiki konfransın materialları, 22 noyabr 2014-cü il, s. 726 - 728

6. Aqrar sahədə kooperasiya münasibətlərinin təkmilləşdirilməsi istiqamətləri. "Aqrar elmin və təhsilin innovativ inkişafı" mövzusunda beynəlxalq elmi- praktiki konfransın materialları. Gəncə: 23-24.2015, III cild,s.385 – 388

7. Lənkəran iqtisadi rayonunda aqrar kooperasiya: mövcud durum və inkişaf perspektivləri. AMEA Xəbərləri (iqtisadiyyat seriyası) №1/2018.

8. Фермеры и возможности предпринимательства в аграрном секторе в Азербайджане. Научный форум: «Экономика и менеджмент». Сборник статей по материалам LII международной научно-практической конференции Москва,№7 - 2021.

9. Assessment of the influence of the development of agrarian cooperation on the economic growth of the Lyankyaran economic district. Proceedings of II International Scientific and Practical Conference "INNOVATIVE DEVELOPMENT OF SCIENCE, TECHNOLOGY AND EDUCATION" Perfect Publishing, Vancouver, Kanada, noyabr 16-18, 2023.

10. Aqrar sektorun inkişafının iqtisadi artıma təsiri modeli və onun qiymətləndirilməsi. "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" möövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 5 may 2023-cü il, s.116-121



Dissertasiyanın müdafiəsi "22" may 2024-cü il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının və Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "20" aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2024.
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (39490 işarə)
Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*
*Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*